# Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası




Avropa Şurasının Yerli
və Regional Hakimiyyətlər Konqresi

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası

Cover: SPDP, Council of Europe
Layout: Congress of Local and Regional Authorities
Photo: Council of Europe

Council of Europe, July 2015
Printed at the Council of Europe

**Giriş** ........................................................ **6**

**Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası** ........................................................ **14**

# Giriş

Daha demokratik, daha həmrəy və daha mütərəqqi cəmiyyətlər qurmaq istəyiriksə gənclərin yerli və regional səviyyədə qəbul edilən qərarlarda və görülən fəaliyyətlərdə aktiv iştirakı vacibdir. Hər hansı bir icmanın demokratik həyatında iştirak etmək, hər nə qədər vacib elementlər olsa da, sadəcə səs vermək və seçkilərdə iştirak etməkdən ibarət deyil. İştirak etmək və aktiv vətəndaş olmaq daha yaxşı cəmiyyətin qurulmasına öz töhfəsini vermək məqsədilə qərarların qəbulunda iştirak etmək və onlara təsir etmək, fəaliyyətlər və işlərlə məşğul olmaq üçün hüquqlara, vasitələrə, yerə, imkanlara və lazım olduğunda dəstəyə malik olmaqdır.
*Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyasının Preambulası*

Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyasının Preambulası gənclərin səmərəli iştirakının sağlam və demokratik cəmiyyət üçün vacib olduğunu aydın şəkildə vurğulayır. Gənclərin ənənəvi siyasi proseslərdə iştirakının son illərdə müşahidə edilən azalması kontekstində bu xüsusi əhəmiyyət kəsb edir. Milli, regional və ya yerli səviyyədə olmasından asılı olmayaraq hökumətin bütün sahələrdə apardığı siyasət gənclərin üzləşdiyi reallıqları əks etdirdiyi zaman onların siyasətə olan marağı yenidən canlanacaq.

Hələ 1992-ci ildə Yerli və Regional Hakimiyyətlər Konqresinin sələfi olan Avropanın Yerli və Regional Hakimiyyətlərinin Daimi Konfransı gənclərin iştirakının yerli və regional hakimiyyətlər tərəfindən onların dəyərli və mənalı şəkildə öz töhfələrini verəcək mədəniyyəti qurmaq öhdəliyini tələb etdiyini başa düşdü. Daimi Konfransın öhdəliyi gənclər və seçilmiş yerli

və regional nümayəndələr arasındakı müzakirələrin nəticəsi olan Gənclərin bələdiyyə və regional həyatda iştirakı haqqında Xartiyanın qəbul edilməsinə gətirib çıxardı.

Xartiyanın 10-cu ildönümünü qeyd etmək üçün 2002-ci ilin mart ayında Konqres tərəfindən Krakovda (Polşa) təşkil edilmiş "Gənclər - şəhərlərində və regionlarında iştirakçılar kimi" adlı konfransındakı gənc iştirakçıların xahişi ilə Xartiyaya 2003-cü ildə yenidən baxıldı.

Qərarların alındığı yerlər və bu qərarların aid olduğu şəxslər arasındakı məsafə ucbatından demokratik təsisatların legitimliyi sual altına alına bilər. Yerli və regional hakimiyyətlər vətəndaşlara daha yaxın olmaq üstünlüyünə malikdirlər. Beləcə, onların ərazilərində yaşayan insanlarla əsl dialoq və əməkdaşlığı quraraq vətəndaşların ehtiyaclarına əsaslanan siyasətlərinin həqiqətən

demokratik, məntiqli və səmərəli olmasına nail ola bilirlər. Gənclər yaşadıqları şəhərlərin və regionların vətəndaşlarıdır və gənclərin iştirakı mədəniyyəti inkişaf etdirilməli olduğunda məhz bu səviyyədə kök salmalı və inkişaf etməlidir.

Gənclərin cəmiyyətlərimizin demokratik strukturlarında və proseslərində iştirak etmək hüququ vardır. Onlar səslərini eşitdirmək və özlərinə, habelə həyatlarına təsir edəcək məsələlərlə bağlı öz qərarlarını vermək hüquqlarına malikdirlər. Amma bu, gənclərin nə zərərçəkmiş şəxslər və mühaifzə edilməyə ehtiyacı olan zəif qrup nə də gənclər üçün nəyin yaxşı olduğunu bildiklərini söyləyən yetişkin şəxslərin müdaxiləsi obyekti kimi tanınmamasını tələb edir. Bu, gənclərin iştirakı siyasətləri və təcrübələri sahəsində uyğun dəstəyin verilməsini və öhdəliyin götürülməsini müdafiə edən yenidən baxılmış Xartiya tərəfindən qəbul edilmiş yanaşmadır. Sadəcə bu yolla hakimiyyətlər gənclərin simvolik yollarla getməsi riskinin qarşısını ala bilər.

Yenidən baxılmış Xartiya üç hissəyə bölünür: sektor siyasətləri; gənclərin iştirakı üçün vasitələr; və yerli və regional məsələlərdə gənclərin institusional iştirakı.

Hissə I-də yenidən baxılmış Xartiya səhiyyə, şəhər mühiti, təhsil, və s kimi müxtəlif siyasət sahələri nəzərdən keçirilir və gənclərin öz icmalarında iştirakı üçün lazımi dəstəyi verə bilən bir sıra konkret tədbirlər təklif edilir.

Hissə II-də yerli və regional hökümətlər tərəfindən gənclərin iştirakını gücləndirmək üçün istifadə edilə bilən təlim, məlumat xidmətləri, informasiya və kommunikasiya texnologiyları, gənclər təşkilatları və s kimi ideyaları və vasitələri nəzərdən keçirilir.

Hissə III-də diqqət institusional iştirak və gənclərin öz ehtiyaclarını müəyyən edə, həll yolları axtara, onlara təsir edən qərarlar verə və yerli, habelə regional hökümətlərlə bərabər şəkildə fəaliyyətlər planlaşdıra bildikləri

proseslərdə iştirakına nail olmaq üçün həyata keçirilməli olan strukturlar və dəstək üzərinə cəmləşdirilir.  Bunlara məsələn seçilmiş və ya təyin edilmiş nümayəndələrdən ibarət olan daimi strukturlardan və gənclərə layihələr və siyasətlərə təsir etmək üçün birbaşa məsuliyyət verən gənclər şuraları, gənclər parlamentləri və ya gənclər forumları daxil ola bilər.

Gənclərin iştirakı könüllü işdən tutmuş təşkilatlarda aktiv olmaya və qeyri-rəsmi təhsildə iştirakdan tutmuş kampaniya fəaliyyətlərinə qədər bir çox müxtəlif formada olur. Konqresin yenidən baxılmış Xartiyası xüsusən gənclərin yerli və regional səviyyədə iştirakının konkret fikirlər və vasitələr təşkil edərək təşviqi məqsədini güdür. Bu, gənclərin səmərəli iştirakına necə nail olmaqla bağlı addım bə addım riayət edilməli olan resept deyil çünki vəziyyət bir ölkədən digərinə dəyişir. Buna görə də yenidən baxılmış Xartiya gənclərin yerli və regional səviyyələrdə iştirakını gücləndirmək üçün prinsiplər toplusu, ən yaxşı təcrübələr və göstərişlər kimi

görülməlidir. Yenidən baxılmış Xartiya hüququ cəhətdən məcburi xarakter daşımasa da Avropa Şurasının Nazirlər Komitəsi onun icrasını dəstəkləyən tövsiyyəni qəbul edib. Bu o deməkdir ki, üzv dövlətlər hüquqi baxımdan məcburiyyət daşımasalar da onu icra etmək üçün mənəvi məsuliyyət daşıyırlar.

Avropa Şurasının Gənclər Sektorunda istifadə edilən və gənclərin, habelə hökumət nümayəndələri gənclərin reallıqlarına əsaslanan qərarları birlikdə vermək üçün eyni masa arxasında oturduqları birgə idarəetmə sistemi bütün yerli və regional şuralarda nümunə kimi istifadə edilməli olan iştirak modelidir. Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası birgə idarəetməyə təşviq edən vasitədir və Avropada geniş şəkildə istifadə ediərsə gənclərin həmrəy və mütərəqqi cəmiyyətlərin yaradılmasına öz töhfələrini verməyə, demokratik vətəndaşlıq hüququndan istifadə etməyə və cəmiyyətin

aktiv vətəndaşları kimi bütün qüvvələrini səfərbər etməyə imkan verə bilər.

# Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası

## Konvensiya statusu olmayan Xartiya

*Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi tərəfindən qəbul edilib (10-cu sessiya - 21 may 2003-cü il - 128-ci Tövsiyyəyə Əlavə)*

## Giriş

Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası olacaq sənədin əsası Avropanın Yerli və Regional Hakimiyyətlərinin Daimi Konfransı tərəfindən Lozanda (iyun 1988) və Llangollen (sentyabr 1991) şəhərlərində təşkil edilmiş gənclər siyasətlərinə dair birinci və ikinci konfranslarda atılmışdır. Daha sonra 1992-ci

ilin martında Daimi Konfrans Xartiyanın qəbulu ilə bağlı Tövsiyyə 237 və onun 22-ci Maddəsini qəbul edib.

Gənclərin yerli və regional həyatda iştirakı haqqında Avropa Xartiyasının 10 illiyini qeyd etmək məqsədilə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının Gənclər və İdman İdarəsi ilə tərəfdaş şəklində "Gənclər - şəhərlərində və regionlarında iştirakçılar kimi" adlı konfransı təşkil edib. Krakov şəhərində 7-8 mart 2002-ci ildə baş tutmuş bu konfransın ümumi məqsədi Xartiyanın on illik mövcudluğu dövründə gənclərin iştirakı sahəsində əldə edilmiş irəliləyişləri dəyərləndirmək və digər məsələlərlə yanaşı yaxşı təcrübələri yayaraq gənclərin iştirakı ilə bağlı gələcək təşviqin yollarını müzakirə etmək idi. Konfrans iştirakçıları Krakov Bəyannaməsini qəbul edib və bu sənəddə gənclərin digər qruplar kimi yaşadıqları bələdiyyələrin və regionların vətəndaşları olduğunu və buna görə də cəmiyyətdə iştirakın bütün formalarından bəhrələnə bilməli olduqlarını, gənclərin demokratik cəmiyyətin inkişafındakı rolunu, xüsusən də onların yerli və

regional ictimai həyatdakı rolununun dəstəklənməli və bərpa edilməli olduğunu təsdiq və təşviq edərək bildirdilər. Bundan əlavə konfrans Avropa Şurasının "Demokratik təsisatlar fəaliyyətdə" adlı inteqrasiya edilmiş layihə üçün töhfə oldu.

İştirakçılar üstəlik müasir cəmiyyətdə gənclərin üzləşdiyi yeni çağırışlara cavab istədilər. Beləliklə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi və Avropa Şurasının Gənclər Məsələləri üzrə Məsləhət Şurasından onun iyirmi birinci əsrin informasiya cəmiyyəti və şəhərlərin təhlükəsizliyi kimi yeni çağırışlarına cavab verə bilməsi məqsədilə Gənclərin yerli və regional həyatda iştirakı haqqında Avropa Xartiyasına dəyişikliklərin edilməsi üçün təkliflərin hazırlanması ilə bağlı ekspertlərin təyin edilməsini xahiş etdilər.

İşçi görüşlər 2002-ci ilin sonunda və 2003-cü ilin əvvəlində keçirildi. Bu işçi görüşləri zamanı aparılmış müzakirələr Xartiyanın

hazırki versiyasının əsasını təşkil edir. Xartiyanın bu versiyası üç hissəyə bölünüb. Birinci hissədə yerli və regional hakimiyyətlərə bir çox sahələrdə gənclərlə bağlı siyasətlərin necə aparılması ilə bağlı göstərişlər verilir. İkinci hissədə gənclərin iştirakını təşviq üçün vasitələrdən bəhs edilir. Və sonda, üçüncü hissədə gənclərin iştirakı üçün institusional şərtlərin necə verilməsilə bağlı məsləhətlər təqdim edilir.

**Preambula**

Daha demokratik, daha həmrəy və daha mütərəqqi cəmiyyətlər qurmaq istəyiriksə gənclərin yerli və regional səviyyədə qəbul edilən qərarlarda və görülən fəaliyyətlərdə aktiv iştirakı vacibdir. Hər hansı bir icmanın demokratik həyatında iştirak etmək, hər nə qədər vacib elementlər olsa da, sadəcə səs vermək və seçkilərdə iştirak etməkdən ibarət deyil. İştirak etmək və aktiv vətəndaş olmaq

daha yaxşı cəmiyyətin qurulmasına öz töhfəsini vermək məqsədilə qərarların qəbulunda iştirak etmək və onlara təsir etmək, fəaliyyətlər və işlərlə məşğul olmaq üçün hüquqlara, vasitələrə, yerə, imkanlara və lazım olduğunda dəstəyə malik olmaqdır.

Gənclərə ən yaxın hakimiyyət orqanları kimi yerli və regional hakimiyyət orqanları gənclərin iştirakının təşviqində çox mümhüm rol oynamalıdırlar. Beləcə yerli və regional hakimiyyət orqanları gənclərin sadəcə demokratiya və vətəndaşlıqla bağlı eşitmələri və öyrənmələrini deyil həmçinin onları praktikada görmək fürsətinə nail olmalarını təmin edə bilər.  Amma, gənclərin iştirakı sadəcə aktiv vətəndaşların inkişaf etdirilməsi və ya gələcək üçün demokratiyanın qurulması demək deyil.  İştirakın gənclər üçün məna daşıya bilməsi üçün onların həyatlarının sonrakı mərhələlərində deyil məhz gənclik illərində qərarlara və fəaliyyətlərə təsir edə və

onları formalaşdıra bilmələri həyatı əhəmiyyət kəsb edir.

Gənclərin iştirakını dəstəklədikləri və onu təşviq etdikləri zaman yerli və regional hakimiyyət orqanları sadəcə gənclər problemləri və təzyiqləri ilə mübarizə aparmaqda deyil həmçinin anonimliyin və fərdiyyətçiliyin çox zaman yüksək olduğu müasir cəmiyyətdəki çağırışların öhdəsindən gəlməkdə yardım edərək gənclərin sosial inteqrasiyasına da öz töhfələrini verir. Lakin, gənclərin yerli və regional həyatda iştirakının uğurlu, davamlı və mənalı olması üçün siyasi və ya inzibati sistemlərin inkişaf etdirilməsi və ya yenidən strukturlaşdırılması yetərli deyil. Gənclərin iştirakını təşviq etməyi nəzərdə tutan istənilən siyasət və ya fəaliyyət onlara hörmət edəcək mədəni mühiti təmin etməli və həmçinin bu gənclərin müxtəlif ehtiyaclarını, vəziyyətlərini və istəklərini nəzərə almalıdır.

Və həmçinin bəzi əyləncə və məmnuniyyət elementləri də olmalıdır.

## Prinsiplər

1. Gənclərin yerli və regional həyatda iştirakı Nazirlər Komitəsinin üzv dövlətlərə vətəndaşların yerli ictimai həyatda iştirakı ilə bağlı Rec (2001) 19 saylı Tövsiyyəsində göstərildiyi kimi vətəndaşların ictimai həyatda iştirakı ilə bağlı qlobal siyasətin bir hissəsini təşkil etməlidir.

2. Yerli və regional hakimiyyət orqanları bütün sektor siyasətlərində gənclər aspektinin olmasına inanırlar. Bu xartiyanın müddəalarına riayət edəcəkləri və iştirakın müxtəlif formalarını gənclər və onların nümayəndələri ilə məşvərət və əməkdaşlıq çərçivəsində tətbiq edəcəkləri ilə bağlı öhdəlik götürürlər.

3. Bu Xartiyanın nəzərdə tutduğu prinsiplər və iştirakın müxtəlif formaları ayrı-seçkilik olmadan bütün gənclərə tətbiq edilir. Buna nail olmaq üçün cəmiyyətin ən yoxsul sektorlarından gələn və ya etnik, milli, sosial, cinsi, mədəni, dini və dil azlıqlarına aid gənclərin yerli və regional həyatda iştiraklarını təşviq etməyə xüsusi diqqət göstərilməlidir.

## Hissə I: Sektor siyasətləri

### I.1. İdman, asudə vaxtlar və assosiativ həyat siyasəti

4. Yerli və regional hakimiyyətlər ailə, məktəb və ya işlə birlikdə bələdiyyədə və ya regionda sosial vəhdətin sütünlarından birini təşkil edən gənclər assosiyasiyaları və təşkilatları, gənclər qrupları və icma mərkəzləri tərəfindən təşkil edilmiş sosio-mədəni fəaliyyətləri dəstəkləməlidir. Bunlar

gənclərin iştirakı və gənclər siyasətlərinin idman, mədəniyyət, sənətkarlıq, ticarət, incəsənət və ifadə və yaradıcılığının digər formaları və həmçinin sosial fəaliyyət sahəsində icrasının ideal kanallarıdır.

5. Yerli və regional səviyyədə gənclər assosiyasiyaları sektorunu inkişaf etdirmək üçün yerli və regional hakimiyyət orqanları xüsusən gənclər klubları və təşkilatlarının aparıcılarına və rəhbərlərinə təlim keçən təşkilatlara və həmçinin yerli və regional səviyyədəki həyatda çox əhəmiyyətli rol oynayan gənclərlə işləyən peşəkarlara uyğun tədbirlər vasitəsilə dəstək göstərməlidirlər.

6. Yerli və regional hakimiyyət orqanları assosiyasiyaların öz rəsmi orqanlarında gənclərin aktiv iştirakını təşviq etmələrini həvəsləndirməlidir.

## I.2. Gənclərin iş tapmasını dəstəkləmə və onların işsizliyi ilə mübarizə siyasəti

7. Gənclərin yaşadığı iqtisadi və sosial şərtlər yerli icmaların həyatında iştirak etmək arzularına və bacarıqlarına təsir edir. Gənclər işsiz olduqları və ya yoxsulluqda yaşadıqları zaman yerli və regional həyatda aktiv vətəndaş olmaq üçün lazım olan istəyə, resurslara və sosial dəstəyə daha nadir hallarda sahib olurlar. İşsiz gənclər cəmiyyətin ən kənarda qalanlarından olur və buna görə də yerli və regional hakimiyyət orqanları onların işsizliyini azaltmaq üçün siyasətlər hazırlamalı və təşəbbüslər göstərməlidir.

8. Bu səbəbdən də yerli və regional hakimiyyət orqanları aşağıdakıları etməlidir:

i. gənclərin işsizliyinin səbəbləri ilə mübarizə aparmaq və gənclər üçün iş imkanlarının olmasına yardım etmək

məqsədilə gənclər (işsiz olanlar və ya işini itirmək riski altında olanlar da daxil olmaqla), yerli işçilər, həmkarlar ittifaqları, təhsil, təlim və iş qurumları və gənclər təşkilatları ilə birlikdə siyasətlər və proqramlar hazırlamaq;

ii. mənalı və stabil iş tapmaqda işsiz olan gənclərə mütəxəssislərin köməyi və dəstəyini vermək üçün yerli iş mərkəzləri yaratmaq. Arzu edərlərsə gənclər bu mərkəzlərin idarəetməsində iştirak edə bilmək hüququna sahib olmalıdırlar;

iii. Gənclər və ya gənclərdən ibarət qruplar tərəfindən bizneslərin, şirkətlərin və kooperativlərin yaradılmasını fondların verilməsi və yerlərin, avadanlığın, təlimin və peşəkar məsləhətin verilməsi kimi digər yardım vasitələri ilə dəstəkləmək;

iv. gənclərin sosial iqtisadiyyat, kollektiv özü-özünə yardımlaşma təşəbbüsləri və ya kooperativlər sahəsindəki təcrübələrini təşviq etmək.

## I.3. Şəhər mühiti və məskunlaşma, mənzil siyasəti və nəqliyyat

9. Yerli və regional hakimiyyət orqanları gənclər təşkilatlarının nümayəndələri ilə birlikdə sosial qarşılıqlı əlaqəyə və yüksək keyfiyyətli ictimai məkanların inkişafına töhfə verəcək daha inteqrasiyalı və az parçalanmış yaşam mühitinə əsaslanan şəhər mühitinin inkişafı üçün şərtləri hazırlamalıdır.

10. Yerli və regional hakimiyyət orqanları yerli və ya regional səviyyədə seçilmiş nümayəndələri, iqtisadi sahədə qərar verən şəxsləri, assosiyasiya rəhbərlərini və memarları bir araya gətirən və gənclərin

yaxından iştirak etdiyi mənzil və şəhər mühiti siyasətlərini davam etdirməlidir. Məqsədləri aşağıdakılardır:

i. şəxsin özünü reallaşdırmasına və nəsillər arasında həqiqi həmrəyliyin inkişaf etdirilməsinə gətirən daha ahəngdar mühit üçün proqramları təşkil etmək;

ii. mənzil və/ya mənzil təmiri proqramlarının hazırlanması zamanı sakinlərin sosial və mədəniyyətlərarası reallıqlarını nəzərə alan şəhər mühiti ilə bağlı konkret siyasət inkişaf etdirmək.

11. Gənclər təşkilatları, icarədar təşkilatlarla və/ya istehlakçı təşkilatlarla, sosial mənzil agentlikləri və sosial işçilərlə yaxından əməkdaşlıq edərək yerli və regional hakimiyyət orqanları aşağıdakı xidmətləri inkişafını təşviq etməli və ya mövcud sosial infrastrukturlar daxilində onları inkişaf etdirməlidirlər:

i. gənclərin evi ilə bağlı yerli məlumat xidmətləri;

ii. gənclərə mənzil əldə edə bilmələrində yardım etmək üçün yerli proqramlar (məs. aşağı faizli kreditlər, kirayə təminat sistemləri).

12. Gənclərin mobilliyi əsas istifadəçiləri olduqları ictimai nəqliyyatdan asan istifadə ilə mümkündür. Bu mobillik sosial həyatda iştirak və tam hüquqlu vətəndaş ola bilmək üçün vacibdir.

13. Buna görə də gənclər həm yerli həm də regional səviyyədəki ictimai nəqliyyatın təşkilinə cəlb edilməlidir. Xüsusi şəkildə uyğunlaşdırılmış tariflər ən yoxsul gənclərin səyahət edə bilməsinə imkan verməlidir.

14. Kənd zonalarında mobillik və nəqliyyat həyat keyfiyyəti üçün böyük əhəmiyyət daşıyır və sadəcə iştirakı asanlaşdırmaq üçün vacib deyil. Buna görə də yerli və regional

hakimiyyət orqanları nəqliyyat xidmətləri (dövlət və ya özəl, fərdi və ya kollektiv) vermək istəyən kənd nəqliyyatı sahəsindəki təşəbbüsləri dəstəkləməli və nəqliyyat vasitələrinin olmaması üzündən kənarda qalmış gənclər kimi qrupların kənd zonalarındakı mobilliyini artırmalıdırlar.

## I.4. Gənclərin iştirakını təşviq edən təhsil və təlim siyasəti

15. Məktəb gənclərin sadəcə həyatlarının əhəmiyyətli bir hissəsini keçirdikləri və rəsmi təhsil proqramı ilə oxuduqları təsisat deyil. O, həmçinin həyat barədə düşüncələrinin və görüşlərinin böyük bir hissəsinin formalaşdığı yerdir. Gənclərin məktəb illərində iştirak və demokratiya barədə öyrənmələri və demokratiya, iştirak və vətəndaşlıqla bağlı sanballı dərslərin olması vacibdir. Məktəb həmçinin gənclərin demokratiyanı praktikada yaşadıqları və qərarların qəbul

edilməsindəki iştiraklarının dəstəkləndiyi, təşviq edildiyi və faydalı hesab edildiyi bir məkan olmalıdır. Buna görə də:

i. yerli və regional hakimiyyətlər gənclərin məktəb həyatındakı iştirakını aktiv şəkildə ruhlandırmalıdırlar. Onlar gənclərin demokratik şagird assosiyasiyaları yaratmalarına imkan vermək üçün maliyyə yardımını və iclas məkanları kimi digər dəstək formalarını verməlidirlər. Bu assosiyasiyalar müstəqil və özü-özünü idarə edən olmalıdır. Arzu edərləsə məktəbin idarəetməsi ilə bağlı qərarların qəbulunda müəllimləri və məktəb rəhbərliyi ilə əməkdaşlıq çərçivəsində iştirak edə bilərlər.

ii. yerli və regional hakimiyyət orqanları məktəb proqramlarından məsul olduqları zaman şagirdlərin və şagird assosiyasiyalarının bu proqramlar və

onların tətbiqilə bağlı fikirlərinin öyrənilməsini təmin etməlidirlər. Onlar həmçinin mülki və siyasi təhsilin məktəb proqramına daxil edilməsinivə bütün şagirdlərin təhsil proqramlarında xüsusi yer tutmasını və lazımi resurslardan bəhrələnməsini təmin etməlidir.

## I.5. Mobillik və mübadilələr siyasəti

16. Yerli və regional hakimiyyət orqanları mübadilə siyasətləri vasitəsilə gənclərin (gənc işçilər, tələbələr və ya könüllülər) mobilliyinə şərait yaradan, şəbəkələşmə siyasətlərini hazırlayan və Avropa vətəndaşlığını anlatmağa çalışan assosiyasiyaları və ya qrupları dəstəkləməlidir.

17. Yerli və regional hakimiyyət orqanları gəncləri, onların təşkilatlarını və məktəblərini beynəlxalq qardaşlaşma proqramlarında, mübadilələrin bütün növlərində və Avropa şəbəkələrində aktiv iştirak etməyə həvəsləndirməlidir. Bu hakimiyyət orqanları dillərin öyrənilməsi və mədəniyyətlərarası mübadilələri və həmçinin təcrübə mübadiləsini təşviq etmək üçün onlara maliyyə dəstəyi verməyə hazır olmalıdır.

18. Onlar gəncləri və ya onların nümayəndələrini qardaşlaşma komitələrinə və bu mübadilələri icra etməkdən məsul olan digər orqanlara daxil etməlidirlər.

## I.6. Səhiyyə siyasəti

19. Gənclərin təşəbbüsü olan layihələrin ərsəyə gəlməsini və icrasına şərait yaratmaq və eyni zamanda həm səhiyyə anlayışının

inkişaf etdirilməsi həm də kollektiv həyatın dinamikasını təşviq etmək məqsədilə yerli və regional hakimiyyət orqanları gənclər təşkilatları, seçilmiş nümayəndələr və sosial rifah və səhiyyənin təşviqi ilə maraqlanan bütün peşəkar qruplar arasında məşvərətlərin aparılması üçün institusional mexanizm yaratmalı və inkişaf etdirməlidirlər.

20. Tütün, alkoqol və narkotik maddələrin gənclər arasında sui-istifadəsindən irəli gələn ciddi problemlər qarşısında yerli və regional hakimiyyət orqanları gənclər təşkilatlarının və səhiyyə xidmətlərinin nümayəndələri ilə birlikdə bu problemlərdən zərər çəkmiş gənclər üçün yerli məlumat siyasətləri və qəbul-dinləmə strukturları və həmçinin gənc sosial işçilər və aidiyyatı olan gənclər üçün profilaktika və reabilitasiya strategiyaları sahəsində fəaliyyət göstərən təşkilatların könüllü işçiləri və rəhbərləri

üçün xüsusi təlim siyasətlərini hazırlamalı, inkişaf etdirməli və təşviq etməlidirlər.

21. Cinsi yolla keçən xəstəliklərin hazırki artımı qarşısında yerli və regional hakimiyyət orqanları gənclər üçün informasiya kampaniyalarını və profilaktik tədbirləri intensivləşdirməli və bu yolla cəmiyyət daxilində mənəvi mühakimələrin və bölünmələrin olmadığı sosial əlaqələri yaradan həmrəylik ruhunu təşviq etməlidirlər. Gənclər və yerli gənclər təşkilatlarının və səhiyyə xidmətlərinin nümayəndələri bu informasiya və fəaliyyət proqramlarının hazırlanmasına və icrasına yaxından cəlb edilməlidirlər.

## I.7. Gender bərabərliyi siyasəti

22. Qadınların və kişilərin yerli və regional məsələlərdə bərabər şəkildə iştirakı üçün optimal şərtləri yaratma siyasətlərinin bir

hissəsi kimi yerli və regional hakimiyyət orqanları gənc qadınların və kişilərin iş həyatında, assosiyasiyalarda, siyasətdə və yerli və regional hakimiyyət orqanlarında məsuliyyətli vəzifə tutmalarını dəstəkləmək üçün tədbirlər həyata keçirməlidir.

23. Səlahiyyətləri çərçivəsində yerli və regional hakimiyyət orqanları kiçik yaşlarından qadınlar və kişilər arasında bərabərliyin təhsil siyasətini təşviq etməlidirlər.

24. Qadınlarla kişilər arasında bərabərlik siyasətini təşviq etmək üçün yerli və regional hakimiyyət orqanları aşağıdakıları etməlidir:

i. gənc kişilər və gənc qadınlar arasında bərabərsizliklərin aradan qaldırılması məqsədini güdən ara müddətlik planı hazırlamaq;

ii. qızlar və gənc qadınlar üçün bərabər imkanları təşviq edən tədbirləri icra etmək və dəyərləndirmək.

25. Bu məqsədə çatmaq üçün bəhs edilən siyasətlər xüsusən də qızlara və gənc qadınlara aşağıdakıları etməyə imkan verməlidir:

i. peşəkar keyfiyyətlərə gətirib çıxaran təlimlər barədə xüsusi məlumat əldə etmək;

ii. təqaüdlər və xüsusi təhsil proqramları sayəsində həmçinin ənənəvi olaraq kişilər tərəfindən görülən peşələrdə iş bacarıqları əldə etmək;

iii. qadınlar üçün nəzərdə tutulmuş yerlərin kvotaları əsasında ən yüksək səviyyədə məsuliyyətləri verərək ictimai işlərin aparılması ilə bağlı onlara təlim keçmək;

iv. qızlara və gənc qadınlara yardım edən sosial xidmətlər üçün maliyyə tədbirləri görmək.

## I.8. Kənd regionları üçün xüsusi siyasət

26. Yerli və regional hakimiyyət orqanları gənclərin iştirakını təşviq etmək üçün fəaliyyətlərin təşkili və həyata keçirilməsi zamanı kənd zonalarında yaşayan gənclərin müxtəlif ehtiyaclarını nəzərə almalıdırlar. Buna görə də onlar aşağıdakıları etməlidirlər:

i. təhsil, iş, mənzil, nəqliyyat və digər sektor siyasətlərinin kənd zonalarında yaşayan gənclərin xüsusi ehtiyaclarına uyğun gəlməsindən və cavab verməsindən əmin olmaq. Bu siyasətlər kənd zonalarında yaşamaq istəyən gənclərə bunu edə bilməkdə yardım etməlidir. Kənd zonalarında yaşayan

gənclər şəhər zonalarında yaşayanların bəhrələndiyi sosial xidmətlərdən aşağı xidmətlər görməməlidir.

ii. kənd zonalarında aktiv olan gənclər təşkilatlarına və digər yerli təşkilatlara maliyyə və başqa dəstəkləri vermək. Bu təşkilatlar kənd zonalarında sosial və mədəni həyatı canlandıra və gənclər üçün vacib sosial çıxış ola bilər. Gənclər təşkilatları və digər yerli təşkilatlar sadəcə gənclərin iştirakını həvəsləndirməkdə vacib rol oynamırlar. Onlar həmçinin həyat keyfiyyətini artıra və kənd zonalarında təcrid olunma kimi problemlərlə mübarizə apara bilərlər.

## I.9. Mədəniyyətə çıxış siyasəti

27. İncəsənət və mədəniyyət zövqlərə, məkanlara və zamana uyğun olaraq daima dəyişən çox fərqli formalarda mövcuddur.

Amma onlar bir-birinin ardınca gələn nəsillərin töhfə veridyi keçmiş, indiki və gələcək şəxsi və kollektiv irsin bir hissəsidirlər. Onlar bir anlamda hər bir cəmiyyətin aynasıdırlar. Gənclər mədəniyyət praktikaları və təşəbbüs, araşdırma və innovasiya bacarıqları ilə bu mədəni inkişafı qurur və onda rol oynayırlar. Buna görə də mədəniyyətə bütün formalarında çıxışlarının olmasına imkan vermək və həmçinin yeni sahələrdə yaradıcılıqları üçün imkanlarını təşviq etmək vacibdir.

28. Yerli və regional hakimiyyət orqanları beləcə gənclərlə və onların təşkilatları ilə birlikdə onlara biliyə, mədəniyyətin praktikasına və yaradıcı fəaliyyətə məkanlarda çıxışı olan və bu məqsədlə nəzərdə tutulmuş metodlardan istifadə edən metodlar sayəsində mədəniyyət iştirakçıları olmağa imkan vermək məqsədi güdən siyasətləri qəbul etməlidirlər.

## I.10. Davamlı inkişaf və ətraf mühit siyasəti

29. Ətraf mühitin getdikcə gözə çarpan şəkildə pozulması qarşısında yerli və regional hakimiyyət orqanları ətraf mühit problemlərinə həssaslığı artırmaq üçün məktəblərdəki və assosiyasiyalardakı təhsil layihələrinə maliyyə dəstəyi verməlidirlər.

30. Ətraf mühit problemlərinin keçmişdə edilmiş səhvlərin nəticələri ilə mübarizə aparmağa məcbur olacaq gəncləri çox narahat etdiyini anlayaraq yerli və regional hakimiyyət orqanları davamlı inkişafı və ətraf mühitin qorunmasını təşviq edən və gəncləri və onların təşkilatlarını cəlb edən fəaliyyətləri və layihələri dəstəkləməlidir.

## 1.11. Şiddətlə və cinayətkarlıqla mübarizə siyasəti

31. Cinayətkarlığın və şiddətin qurbanlarının çox vaxt gənclər olduğunu xatırlayaraq və müasir cəmiyyətdə cinayətkarlıq və şiddətə adekvat cavabların tapılmasının vacibliyini və həmçinin gənclərin bu problemlərlə mübarizə aparmaq üçün birbaşa cəlb edilmə ehtiyacını tanıyaraq;

32. Yerli və regional hakimiyyət orqanları aşağıdakıları etməlidir:

i. gənclərin mövcud olduqları zaman cinayətkarlığın qarşısının alınması şuralarına cəlb etmək;

ii. xüsusən cinayətkarlığa cəlb edilmə riski olan və ya artıq cinayətkarlığa cəlb edilmiş gənclərlə işləmək;

iii. mövcud olan bütün vasitələrlə irqçi şiddətə qarşı mübarizə aparmaq;

iv. məktəblərdəki şiddətin bütün formalarına qarşı mübarizə aparmaq. Bu, təhsil və polis orqanları, müəllimlər, valideynlər və gənclərin özləri kimi aidiyyatı olan tərəflərlə əməkdaşlıq çərçivəsində həyata keçirilməlidir.

v. həm məktəblərdə həm də məktəbdən kənarda şiddətə qarşı olmanı və dözümlülüyü təşviq edən assosiyasiyalar və layihələr şəbəkələrinin yaradılmasına töhfə vermək;

vi. gəncləri cinsi istismardan və təcavüzdən və ya pis rəftarın digər formalarından qorumaq və psixoloji və maddi dəstək verən strukturları və həmçinin zərərçəkmişlər üçün məxfi konsultasiyaları təşkil etmək məqsədilə əllərindən gələni etmək.

33. Yuxarıda qeyd edilənləri icra edərkən yerli və regional hakimiyyət orqanları gənclər və polis kimi dövlət qurumları

arasında inam və hörmət mühitinin qurulmasına yardım edirlər.

## I.12. Ayrı-seçkiliyə qarşı siyasət

34. Yerli və regional hakimiyyət orqanları insan hüquqlarını və azlıqlara (həmçinin onların gənc üzvləri), əngəllilərə və digər qruplara qarşı olan ayrı-seçkiliklə mübarizə aparmaq üçün tədbirləri aktiv şəkildə təşviq etməli və eyni zamanda azlıqların müxtəlif ehtiyaclarını, adətlərini, mədəniyyətlərini və yaşam tərzlərini nəzərə alaraq onların inteqrasiyası yolu ilə çoxmədəniyyətli icmaların inkişafını dəstəkləməlidir.

35. Bu məqsədlə yerli və regional hakimiyyət orqanları aşağıdakıları etməlidir:

i. bütün vətəndaşların ictimai yerlərə, peşə təlimlərinə, məktəbə, mənzilə, mədəni fəaliyyətlərə və həyatın digər sahələrinə bərabər şəkildə çıxışını

təmin etmək üçün ayrı-seçkiliyə qarşı qanunvericilik qəbul etmək və ya gücləndirmək. Bu cür çıxışlar hökumət nümayəndələrindən, azlıqların təmsilçilərindən və gənclərin özlərindən təşkil edilmiş birgə qurumlar tərəfindən monitorinq və təmin edilməlidir.

ii. dinlərarası dialoqu, çoxmədəniyyətlilik və ayrı-seçkiliyə qarşı təhsili məktəb proqramlarının bir hissəsi kimi dəstəkləmək.

## I.13. Cinsiyyət siyasəti

36. Ailədən, məktəbdən, dini icmadan və ya digər "böyüklərdən" asılı olan uşaqlıq çağından sərbəst yetişkin həyatına keçid zamanı gənclər şəxsi əlaqələri ilə bağlı məsələlər haqqında (ailə və yaxın çevrə daxilində, yoldaşları, dostları və sevgililəri ilə)

bır sıra suallarla qarşılaşa bilərlər. Cinsiyyət məsələlərinin ortaya çıxması və ya tətbiqi onlar bunu qəbul etməsələr belə hər zaman asan olmur. Üstəlik, cinsi sağlamlığa dair davamlı məlumatsızlıq və bəzi cinsi rəftar riskləri ilə bağlı rəsmi mövqelərə inamsızlıq mövcuddur.

37. Sağlam və hisslərlə zəngin həyata qədəm qoymalarında gənclərə yardım etmək məqsədilə yerli və regional hakimiyyət orqanları valideynlərlə, məktəblərlə və bu sahədə ixtisaslaşmış təşkilatlarla əməkdaşlıq edərək aşağıdakıları təşviq etməli və dəstəkləməlidir:

i. məktəblərdə cinsiyyətin istiqamətləndirici olmayan tədrisi;

ii. əlaqələr, cinsi metodlar və ailə planlaması ilə bağlı məlumat verən təşkilatlar və xidmətlər;

iii. bu sahədə işçi qrupları.

38. Gənclər bu sahədə onlarla bağlı məlumatların və digər xidmətlərin planlaşdırılması, icrası və dəyərləndirilməsinə aktiv şəkildə cəlb edilməlidir.

## I.14. Hüquqlara və qanunlara çıxış siyasəti

39. Birgə yaşamaq üçün cəmiyyətlər hər kəs tərəfindən hörmət edilməli olan qaydalara əsaslanır. Demokratik cəmiyyətlərdə bu qaydalar vətəndaşların seçilmiş nümayəndələri tərəfindən müzakirə və qəbul edilir və xüsusən də hər kəsə hüquqlar və öhdəliklər verən qanunvericilik sənədləri kimi konkret şəkil alırlar.

40. Bu mətnlərin sayı artdığı üçün fərdlərin onları bilməsi və tətbiq etməsi getdikcə çətinləşir. Bu da vətəndaşlar arasında

fərqlərə səbəb olur. Gənclər bu fenomendən təbii olaraq narahat olurlar.

41. Buna görə də yerli və regional hakimiyyət orqanları gənclərin bu hüquqlara çıxışını aşağıdakıları etməklə asanlaşdırmalıdır:

i. məlumatların xüsusən də məktəblərdə, gənclərdən ibarət qruplarında və məlumat xidmətlərində yayılması ilə onların biliklərini inkişaf etdirərək;

ii. arzu edən gənclərlə birgə fəaliyyət göstərəcək şəkildə qurulmuş xidmətlərin dəstəyi ilə onların hüquqlarını icra edərək;

iii. gənclərə yeni qaydaların hazırlanmasında iştirak etməyə imkan verərək.

## Hissə II: Gənclərin iştirakı üçün vasitələr

42. Gənclərin həqiqi iştirakına nail olmaq üçün bir sıra vasitələr gənclərin ixtiyarına verilməlidir. Bu, gənclərin təlimlərdə iştirakını artırma, onları məlumatlandırma, onlara kommunikasiya vasitələri vermə, layihələrini dəstəkləmə, cəmiyyətdəki işlərini və könüllü gördükləri fəaliyyətləri qəbul etmə və dəyərləndirilməsi deməkdir. Gənclərin rolu bütün partiyalarda, həmkarlar ittifaqlarında və assosiyasiyalarda tanındığı zaman və hər şeydən öncə gənclər üçün və gənclər tərəfindən gənclər assosiyasiyalarının təşviqində təşəbbüslər göstərildiyində iştirak sözün əsl mənasında reallaşır.

## II.1. Gənclərin iştirakı ilə bağlı təlim

43. Məktəbin gənclərin həyatında oynadığı əhəmiyyətli rolu başa düşərək yerli və regional hakimiyyət orqanları məktəb çərçivəsində gənclərin iştirakı, insan

hüquqlarının tədrisi və məktəblərdə qeyri-formal tədrislə bağlı dəstək və təlim verməlidir. Onlar həmçinin gənclərin assosiyasiya həyatında və yerli icmalarının həyatındakı iştirakı ilə bağlı təlim və dəstəyi aşağıdakıları təşviq edərək verməlidir:

i. müəllimlər və gənclərlə işləyənlər üçün gənclərin iştirakının həyata keçiriməsi ilə bağlı peşə təlimləri;

ii. şagirdlərin məktəblərdə iştirakının bütün formaları;

iii. məktəblərdə mülki təhsil proqramları;

iv. lazımi məkanı və vasitələri verərək və yaxşı təcrübələrin mübadiləsini dəstəkləyərək qruplar şəklində verilən tədris.

## II.2. Gəncləri məlumatlandırma

44. Məlumat çox vaxt iştirakın açarıdır və gənclərin onlara aid olan imkanlarla və məsələlərlə bağlı məlumata çıxış hüquqlarının olması sadəcə yerli və regional həyat kontekstində deyil rəsmi Avropa və beynəlxalq sənədlərdə [1] getdikcə daha çox tanınır.

45. Fəaliyyətlərdə və icmalarının həyatında iştirak etmək üçün və ya onlarla bağlı xidmətlərdən və imkanlardan bəhrələnmək üçün gənclərin bunlar haqqında məlumatı olmalıdır. Onlara maraqlı olan və özlərinin təşkil etdikləri fəaliyyətlərdə və layihələrdə iştirak çox vaxt onların icmanın işlərinə cəlb olunması və onun siyasi həyatına daxil

---

[1] Məsələn bax, Avropa Şurası Nazirlər Komitəsinin Avropadakı gənclərə verilən məlumat və məsləhətlə bağlı 21 fevral 1990-cı ildə qəbul edilmiş R (90) 7 saylı Tövsiyyəsi.

olmasına cəsarətləndirmə istiqamətində atılan bir addımdır.

46. Buna görə də yerli və regional hakimiyyət orqanları gənclərin ifadə etdiyi ehtiyaclara cavab verəcək keyfiyyətli xidmətləri göstərə bilmələrini təmin etmək məqsədilə gənclər üçün olan mövcud məlumat və məsləhət mərkəzlərini dəstəkləməli və təkmilləşdirməlidir. Bu cür mərkəzlər olmayan yerdə yerli və regional hakimiyyət orqanları və digər aidiyyatı olan tərəflər məktəblər, gənclər xidməti və kitab mağazaları kimi mövcud strukturlar çərçivəsində gənclər üçün nəzərdə tutulmuş uyğun məlumat xidmətlərinin yaradılmasını təşviq etməlidir. Məlumata çıxmaqda çətinlik çəkən gənclər qruplarının məlumat ehtiyaclarına cavab vermək üçün xüsusi tədbirlər görülməlidir (dil baryerləri, internetə çıxışın olmaması, və s).

47. Gənclər üçün nəzərdə tutlmuş məlumat xidmətləri bəzi peşə prinsiplərinə və normalarına cavab verməlidir.[2] Dövlət orqanları bu cür standartları təmin etməyə və onların mümkün olduğu qədər dövlət (və ya regional) səviyyədə qəbul edilmiş tədbirlərə və standartlara uyğun olaraq daimi şəkildə təkmilləşdirilməsinə həvəsləndirməlidirlər. Gənclər fəaliyyətlərin və gənclərin məlumat mərkəzləri/xidmətlərinin məhsullarının hazırlanması, icrası və qiymətləndirilməsində iştirak etmək imkanına malik olmalı və hökumət orqanlarına təmsil oluna bilməlidirlər.

## II.3. İnformasiya və kommunikasiya texnologiyaları ilə gənclərin iştirakını təşviq

---

[2] 2. Bax, məsələn, Avropa Gənclərə məlumatl və məsləhət Agentliyi (ERYICA) tərəfindən qəbul edilmiş Avropa Gənclik Məlumat Xartiyası.

**etmə**

48. İnformasiya və kommunikasiya texnologiyaları gənclərin məlumatlandırılmasına və iştirakı üçün yeni imkanlar verə bilər. Onlar geniş saylı məlumatları paylaşmaq və onların qarşılıqlı fəaliyyəti sayəsində gənclərin iştirakını artırımaq üçün istifadə edilə bilər. Buna görə də yerli və regional hakimiyyət orqanları informasiya və iştirak siyasətlərində bu texnologiyalardan istifadə etməli və bütün gənclərin onlara çıxışını yerlər və bu yeni vasitələrlə təlimlər baxımından təmin etməlidir.

## II.4. Gənclərin mediada iştirakını təşviq etmə

49. Gənclər böyük media istehlakçıları olduğu kimi fikirlərini ifadə etmək və

medianın veridyi məlumatın hazırlanmasında iştirak etmək üçün verilmiş imkanları artırmaqla bu sahədə iştirakçı da ola bilərlər. Bəzi məsələləri həll etmə üsulları ilə gənclər öz yaş qruplarına fərqli və daha çox əldə edilən məlumatı vermək üçün şərait yarada bilərlər. Bu iştirak həmçinin gənclərə məlumatın hazırlanmasını başa düşməyə və vacib tənqid hissi verməyə imkan verir.

50. Bunun üçün də yerli və regional hakimiyyət orqanları gənclər üçün və onlar tərəfindən hazırlanmış medianın yaradılması və fəaliyyətini və həmçinin aidiyyatı olan təlim proqramlarını dəstəkləməlidirlər.

## II.5. Gəncləri könüllü işlər görməyə və özlərini cəmiyyət işlərinə həsr etməyə həvəsləndirmə

51. Gənclər könüllü fəaliyyətlərdə iştirak etmək üçün dəstəklənməli və

həvəsləndirilməlidirlər. Gənclərin təhsildə və iş həyatında fərdlər kimi uğur qazanmaqla bağlı artan təzyiq altına olduqları bir vaxtda könüllü işin təşviq edilməsi və tanınması vacibdir. Buna görə də yerli və regional hakimiyyət orqanları aşağıdakıları etməlidir:

i. könüllülər mərkəzlərinin yaradılmasına yardım etmək və gənclərin məlumat və təşviqat kampaniyaları kimi könüllü fəaliyyətlərində iştirakını dəstəkləyən və təşviq edən təşəbbüsləri inkişaf etdirmək.

ii. gənclər, könüllülər təşkilatları, təhsil müəssisələri və işçilərlə əməkdaşlıq çərçivəsində könüllülərin fəaliyyətini formal təhsil sistemi və iş həyatında qəbul edən və təsdiqləyən sistemləri inkişaf etdirmək.

## II.6. Gənclər layihələrinin və

**təşəbbüslərinin dəstəklənməsi**

52. Ümidləri və istəkləri sayəsində gənclərin hər kəsin bəhrələnə biləcəyi layihələrə və yerli fəaliyyətlərə çevirilə bilən bir çox fikirləri vardır. Yaxşı dəstəkləndikləri zaman bu layihələr, onların uğurları və uğursuzluqları gənclərə öz məsuliyyət hisslərini və müstəqilliklərini inkişaf etdirməyə və beləcə sosial həyatın bir hissəsi olmağa olmağa kömək edə bilər. Buna görə də yerli və regional hakimiyyət orqanları böyük və ya kiçik olmalarından asılı olmayaraq bu layihələrin icrasını onların həyata keçirilmələri zamanı peşəkarlar tərəfindən müşayiət edilmələrinə və maddi, material və texniki dəstəyə imkan verərək asanlaşdırmalıdır.

## II.7. Gənclər təşkilatlarının təşviqi

53. Əsas məqsədləri gənclərin fikirlərini əks etdirmək, onların ehtiyac və maraqlarına xidmət etmək olduğu üçün gənclər təşkilatları unikal xarakter daşıyırlar. Onlar həmçinin gənclərin öz yaşıdları ilə qərarların verilməsi və fəaliyyətlərin aparılmasında iştirak imkanlarına və çağırışları öyrənməsinə və təcrübədən keçirməsinə imkan verən məkanları verirlər. Bunlar strukturlaşmış təşkilatlar və ya gənclərin qeyri-formal qrupları ola bilər. Gənclərin icmalarındakı istədikləri gənclər təşkilatına girmək imkanı və seçimi olmalıdır. Onlar həmçinin arzu etdikləri zaman öz təşkilatlarını qurmaq hüququna malik olmalı və bu işdə dəstəklənməlidirlər. Buna görə də:

i. yerli və regional hakimiyyət orqanları sadəcə fəaliyyətlər görən, xidmətlər verən, gənclərin cəmiyyətdə sözçüsü rolunu oynayan və onların maraqlarını qoruyan gənclər təşkilatlarını

dəstəkləmək üçün nəzərdə tutulmuş xüsusi büdcəyə sahib olmalıdır. Üstünlük gənclər tərəfindən idarə edilən və gənclər üçün nəzərdə tutulmuş və/ya gənclərin aktiv iştirakına imkan verən təşkilatlara verilməlidir.

ii. yerli və regional hakimiyyət orqanları gənclərlə bağlı siyasət sahələrində Avropa Şurasının birgə idarəetmə prinsipini və qərarvermə sistemini gənclərlə və gənclər təşkilatları ilə tərəfdaşlıq çərçivəsində inkişaf etdirməlidir. Birgə idarəetmənin həyata keçirildiyi yerlərdə gənclərə və gənclər təşkilatlarına tamhüquqlu tərəfdaşlar kimi hörmət edilməsi və arzu etdiklərində iştirak etməmək seçiminə sahib olmaları vacibdir.

## II.8. Gənclərin qeyri-hökumət təşkilatlarında (QHT-lər) və siyasi

**partiyalarda iştirakı**

54. Canlı, müstəqil və aktiv qeyri-hökumət sektoru həqiqi demokratik cəmiyyətdə vacib elementdir. Siyasi partiyalar kimi vətəndaş cəmiyyətinin digər sektorların yerli və regional səviyyədə güclü və aktiv olması da vacibdir. İstənilən ölkənin, regionun və ya yerin demokratik həyatında iştirak sadəcə seçkilərdə mütəmadi olaraq səs vermək deyil. Bu səbəbdən QHT-lərdə və siyasi partiyalarda iştirak çox vacibdir, çünki vətəndaşların onlara cəlb edilməsinə, qərarlar və fəaliyyətlərə təsir etməsinə kömək edir. Buna görə də gənclərin icmalarının assosiyativ həyatında iştirakını həvəsləndirmək və dəstəkləmək böyük əhəmiyyət daşıyır.

55. Yerli və regional hakimiyyət orqanları gənclərin fəaliyyətlərində, demokratik qərarvermə strukturlarında və prosedurlarında iştirakını aktiv şəkildə təşviq

edən QHT-ləri maliyyə və digər resurslarla təchiz etməlidir.

56. Yerli və regional hakimiyyət orqanları siyasi partiyalarla tərəfdaşlıq çərçivəsində və neytral şəkildə gənclərin ümumən siyasi partiya sisteminə cəlbini təşviq etməli və təlim kimi xüsusi fəaliyyətləri dəstəkləməlidir.

**Hissə III: Gənclərin yerli və regional məsələlərdə institusional iştirakı**

57. Hissə I-də qeyd edilmiş sektor siyasətlərini həyata keçirmək üçün yerli və regional hakimiyyət orqanları gənclərin onlarla bağlı olan qərarlarda və müzakirələrdə iştirakına imkan verən uyğun strukturları və ya vasitələri həyata keçirməlidir.

58. Bu strukturlar həyata keçirildiyi səviyyədən yəni kənd, şəhər, şəhərə yaxın

məhəllər və ya hətta regiondan asılı olaraq müxtəlif formaları ala bilər. Onlar gənclərlə yerli və regional hakimiyyət orqanları arasında həqiqi dialoqun və tərəfdaşlığın şərtlərini hazırlamalı və həmçinin gənclərin və onların nümayəndələrinin gənclərlə bağlı siyasətlərin tamhüquqlu iştirakçıları olmasına imkan verməlidir. Bu cür strukturlar normal olaraq təmsiledici və daimi olmalı və gənclərin maraqlandığı bütün sahələrlə məşğul olmalıdırlar. Üstəlik, müzakirələr aparmaq və xüsusi məsələnin həll etmək üçün ad hoc strukturun yaradılması nəzərdə tutula bilər. İmkan olduqda müxtəlif formaları birləşdirmək məqsədəuyğun olar.

## III.1. Gənclər şuraları, gənclər parlamentləri, gənclər forumları

59. Gənclərin yerli və regional məsələlərdə səmərəli iştirakı icmalarında baş verən sosial və mədəni dəyişiklikləri anlamaya

əsaslanmalıdır və bunun üçün gənclər şurası, gənclər parlamenti və ya gənclər forumu kimi daimi təmsiledici struktur olmalıdır.

60. Bu cür struktur seçki və ya gənclər təşkilarları daxilindən təyin edilmə və/ya könüllülük prinsipi ilə təşkil edilməlidir. Onun üzvləri yerli icmanın sosioloji xüsusiyyətlərini əks etdirməlidir.

61. Gənclər layihələr üçün birbaşa məsuliyyət daşımalı və aidiyyatı olan siyasətlərdə aktiv iştirak etməlidirlər. Bu məqsədlə yerli və regional hakimiyyət orqanları aktiv iştirak üçün strukturları yaratmalı və dəstəkləməlidirlər.

62. Bu strukturlar gənclərin narahatlıqlarını, xüsusən də hakimiyət orqanlarına sərbəst şəkildə bildirməsi və onlara təkliflər etməsi üçün fiziki çərçivəni təşkil edir. Qaldırılan məsələlər hazırki Xartiyanın Hissə I-də qeyd edilmişləri əks etdirə bilər.

63. Bu cür strukturun rollarına aşağıdakılar daxil ola bilər:

i. gənclərin həmçinin hakimiyyət orqanlarının təklifləri və siyasətləri ilə bağlı narahatlıqlarını sərbəst şəkildə bildirməsi üçün məkanla təchiz etmə;

ii. gənclərə yerli və regional hakimiyyət orqanlarına təkliflər etmək imkanını vermə;

iii. hakimiyyət orqanlarına xüsusi məsələlərlə bağlı gənclərlə məsləhətləşməyə imkan vermə;

iv. gənclərin cəlb edildiyi, hazırlandığı, izləndiyi və qiymətləndirildiyi məkanla təchiz etmə;

v. gənclərin assosiyasiyaları və təşkilatları ilə konsultasiyaları asanlaşdıran yerlə təmin etmə;

vi. yerli və regional hakimiyyət orqanlarının digər məşvərətçi qurumlarında gənclərin iştirakını asanlaşdırma.

64. Gənclərə onları narahat edən problemlər barədə danışmağa və fəaliyyət göstərməyə imkan yaradaraq bu cür strukturlar demokratik həyat və ictimai işlərin idarəetməsi kimi təlimləri təşkil edirlər.

65. Buna görə də demokratik vətəndaşlığın prinsiplərini öyrənmək və tətbiq etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə gənclər bu cür strukturlarda və bu çərçivədə görülən fəalyyətlərdə iştirak etməyə həvəsləndirilməlidirlər. Bu növ strukturlar həmçinin xüsusən də layihələrin və yerli və regional hakimiyyət orqanları ilə dialoqun təşəbbüsçüləri olan gənclər üçün demokratik liderlik üzrə təlimin keçirildiyi yer olmalıdır.

66. Yerli və regional hakimiyyət orqanları və gənclərin özləri də, xüsusən də gənclərin seçkilərdə və referendum kimi digər seçkilərdə iştirakı kimi vətəndaşlıq hüquqlarından istifadələrini təşviq etmə baxımından gənclərin bu cür strukturlarda iştirakının yaratdığı çoxaldıcı effektdən bəhrələnməlidir.

## III.2. Gənclərin iştirakı strukturlarına dəstək

67. Səmərəli şəkildə fəaliyyət göstərmək üçün gənclərin iştirakının institusional strukturlarının (rəsmi və qeyri-rəsmi olmasından asılı olmayaraq) resurslara və dəstəyə ehtiyacı var. Buna nail olmaq üçün yerli və regional hakimiyyət orqanları bu strukturların problemsiz və səmərəli fəaliyyətini təmin etmək üçün onları məkan, maddi vasitələr və material dəsəklə təchiz etməlidir. Bu cür vasitələrin təşkili ilə yanaşı

sözügedən strukturlar özəl fondlar və şirkətlər kimi digər resurslardan əlavə maddi və material dəstək axtara bilərlər.

68. Yerli və regional hakimiyyət orqanları gənclərin iştirakı strukturlarının bu dəstəkdən yararlanmasını təmin etməlidirlər. Bu məqsədlə onlar dəstək tədbirlərinin icrasına nəzarət edən və strukturların ehtiyacları olduğunda müraciət edə biləcəkləri bir şəxsi və ya qrupu təminatçı kimi təyin etməlidirlər.

69. Bu cür şəxs və ya qrup siyasi və gənclərin iştirak strukturlardan müstəqil olmalı və təyinatları sözügedən sturkturlar tərəfindən təsdiq edilməlidir.

70. Yuxarıda bəhs edilən dəstəyin təmin edilməsindən əlavə bu şəxs(lər)in vəzifələrinə aşağıdakılar da daxil ola bilər:

i. gənclər və yerli və regional hakimiyyət orqanlarının seçilmiş nümayəndələri

arasında hər iki tərəfin qaldırdığı məsələ ilə bağlı vasitəçi rolunu oynama;

ii. gənclər və yerli və regional hakimiyyətlər arasında gərginlik baş verdiyində gəncləri müdafiə etmə;

iii. yerli və regional hakimiyyət orqanları və gənclər arasında kommunikasiya kanalı rolunu oynama;

iv. gənclərin məsələn layihələrin icrası və ya gənclərin iştirak strukturlarına cəlb edilməsi və onların iştirakının təsiri ilə bağlı yerli və regional həyatda iştirak səviyyəsini dəyərləndirmək məqsədilə gənclər və yerli və regional hakimiyyət orqanları üçün mütəmadi hesabatlar hazırlama.

Gənclər demokratik strukturlara və proseslərə cəlb edilməli, fikirlərini bildirməli, onlara və həyatlarına təsir edən məsələlərlə bağlı qərarlar verməlidirlər. Onların aktiv iştirakı daha demokratik, qayğıkeş və rifahlı cəmiyyətləri qura bilməmiz üçün vacibdir.

Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi gənclərin iştirak mədəniyyətinin məhz yerli və regional səviyyələrdə daha səmərəli şəkildə yarana və inkişaf edə biləcəyinə inanır. Hələ 1992-ci ildə Konqres, cəmiyyətdə gedən dəyişiklikləri daha yaxşı əks etdirməsi üçün 2003-cü ildə yenidən baxılmış Gənclərin Yerli və Regional Həyatda İştirakı haqqında Avropa Xartiyasının arxasında duran aparıcı qüvvə olub.

Yenidən baxılmış Xartiya gənclərin yerli və regional səviyyələrdə iştirakının gücləndirilməsinə yönəlik prinsiplər, ən yaxşı təcrübələr və rəhbər qaydaları özündə əks etdirir. O, həmçinin bu iştirakın məna daşımasını, yəni gənclərin zəruri hüquqlara, vasitələrə, məkana, imkanlara və dəstəyə sahib olmasını təmin edən başlıca tələbləri müəyyən edir. Xartiya hüquqi baxımdan məcburi qüvvəyə malik sənəd olmasa da üzv dövlətlər onu icra etməyə mənəvi məsuliyyət daşıyırlar.

Prems 035015

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarının müdafiəsi sahəsindəki aparıcı təşkilatıdır. 28-i eyni zamanda Avropa İttifaqının üzvü olan 47 üzv dövlətdən ibarətdir. 47 üzv dövlətində yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının bir təsisatıdır. İki palatadan (Yerli hakimiyyətlər Palatası və Regionlar Palatası) və 3 komitədən təşkil edilən bu təsisat 200 000-dən çox region və bələdiyyə qurumlarını təmsil edən 648 seçilmiş nümayəndədən ibarətdir.